# Milli təhsilimizin tarixi səhifələri

**“Tarixi təhsil ocağı: İrəvan Azərbaycanlı Pedaqoji Məktəbi” kitabı işıq üzü gördü.**

Azərbaycan təhsilinin tarixində Qori Müəllimlər Seminariyası mühüm rol oynadığı kimi, İrəvan Azərbaycanlı Pedaqoji Məktəbi də əvəzsiz işlər görmüşdür. Qori Müəllimlər Seminariyasının fəaliyyəti haqqında xeyli tədqiqat və araşdırma aparılmış, bu məşhur təhsil ocağının gördüyü işlər nəinki təkcə təhsil ictimaiyyətinə, həm də geniş oxucu kütləsinə çatdırılmışdır. Ancaq İrəvan Azərbaycanlı Pedaqoji Məktəbinin tarixi, fəaliyyəti, Azərbaycan təhsilinin inkişafında oynadığı rol kifayət qədər araşdırılmadığından onun müstəsna fəaliyyəti uzun illər diqqəti cəlb etməmişdir. Amma bu məktəb də öz dövrünün təhsil sahəsində flaqmanı olmaqla elə bir dövrdə fəaliyyət göstərmişdir ki, pedaqoji kadrların hazırlanmasına böyük ehtiyac vardı. Bu ehtiyacın ödənilməsində İrəvan Azərbaycanlı Pedaqoji Məktəbi öz çiyinləri üzərinə məsuliyyətli, həm də gərəkli olan bir işi götürmüş və Azərbaycan təhsilinin inkişafında böyük xidmətləri ilə adını təhsil tariximizə yazdırmışdır.

Tədqiqatçı alimlər Könül Həsənova və Cəlal Allahverdiyevin həmmüəllifliyi ilə işıq üzü görən 372 səhifəlik “Tarixi təhsil ocağı: İrəvan Azərbaycanlı Pedaqoji Məktəbi” adlı monoqrafiya bu baxımdan daha çox diqqətəlayiqdir. Kitabda 1924-1948-ci illərdə İrəvanda fəaliyyət göstərmiş, milli məktəbləriniz üçün pedaqoji kadrların hazırlanması işində böyük rol oynamış pedaqoji məktəbin yaranmasından, fəaliyyətindən, erməni şovinizmi əhatəsində üzləşdiyi problemlərdən, eləcə də görkəmli məzunlarından bəhs olunur. İrəvan Azərbaycanlı Pedaqoji Məktəbinin 100 illik




yubileyinı böyük ehtiram nümunəsi olan kitab təhsil tariximizin yeni səhifələrindən olmaqla, həm də bu sahə ilə maraqlananlar, pedaqoqlar və geniş oxucu kütləsi üçün dəyərli nümunədir.

Xalq qəzeti .- 2024.- 1 avqust (№ 161).- S.10.